**Azərbaycan Respublikasının rayon (şəhər) və apellyasiya məhkəmələrinə**

Məhkəmələr tərəfindən ev dustaqlığı qətimkan tədbiri ilə bağlı olan məsələlərə baxılması üzrə məhkəmə təcrübəsi təhlil edilərkən müəyyən edilmişdir ki, bu növ qətimkan tədbirinin seçilməsi, uzadılması və əvəz edilməsi zamanı məhkəmə qərarlarının icrasının hansı orqan tərəfindən həyata keçirilməli olması ilə bağlı vahid təcrübə formalaşmamışdır.

Belə ki, bəzi məhkəmə qərarlarında ev dustaqlığı qətimkan tədbirinin icrası təqsirləndirilən şəxsin davranışına nəzarəti həyata keçirən orqan kimi həm müvafiq polis orqanlarına, eyni zamanda rayon icra və probasiya şöbələrinə həvalə edilmişdir. Həbsdə saxlanılan təqsirləndirilən şəxsin barəsində ev dustaqlığı qətimkan tədbirinin tətbiqinə dair qərarın icrasının istintaq təcridxanasına həvalə edilməsi hallarına da təsadüf edilir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - CPM) 163.7-ci maddəsinə əsasən barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs və onun yaşayış yeri müşahidə altına alınır, onun ev dustaqlığı qətimkan tədbirinin şərtlərinə riayət etməsinə *müvafiq icra hakimiyyəti orqanı* tərəfindən nəzarət edilir.

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli Fərmanının 2-ci bəndinə əsasən həmin Məcəllənin 163.7-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş *müvafiq icra hakimiyyəti* orqanının səlahiyyətlərini *Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin* həyata keçirməsi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 144 nömrəli qərarı ilə təsdiq edilmiş “Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi” Qaydalarının 2.2-ci maddəsinə görə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxslərə CPM-ə uyğun olaraq elektron nəzarət vasitələrinin tətbiqi məhkəmənin qərarının elan olunmasından sonra polis orqanı tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirinin 19 sentyabr 2012-ci il tarixli Q48-001-12 nömrəli qərarı ilə təsdiq edilmiş “Polisin nəzarəti altına vermə və ev dustaqlığı qətimkan tədbirlərinin tətbiq edilməsi qaydası haqqında” Təlimatın 5.2-ci maddəsinə görə ev dustaqlığı qətimkan tədbirinin tətbiq edilməsi barədə polis orqanına daxil olmuş məhkəmənin qərarı ictimai təhlükəsizlik xidmətinin rəisi tərəfindən aparılan xüsusi jurnalda qeydiyyata alınır və icrası dərhal polis orqanının rəisi tərəfindən aidiyyəti əməkdaşlara həvalə edilir.

Təlimatın 5.3-cü maddəsinə əsasən ev dustaqlığı qətimkan tədbirinin tətbiqi zamanı polis əməkdaşları yalnız məhkəmənin qərarında nəzərdə tutulmuş hərəkətləri həyata keçirirlər.

Təlimatın 5.9-cü maddəsində göstərilmişdir ki, ev dustaqlığı qətimkan tədbiri tətbiq edilmiş təqsirləndirilən şəxs ətrafında aparılan nəzarət işlərinin vəziyyəti polis orqanının

xidmət üzrə rəis müavini tərəfindən mütəmadi olaraq yoxlanılır və nəzarət işinin keyfiyyətinin artırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi təmin edilir.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 15-1.1-ci maddəsinə əsasən probasiya nəzarəti – azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəza çəkməsi təxirə salınmış məhkumların, habelə bu Məcəllənin 15-1.2.3-cü maddəsində nəzərdə tutulmuş digər şəxslərin üzərinə qanunla və məhkəmə qərarı ilə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsinə, məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş kompleks sosial-hüquqi xarakterli tədbirlər sistemindən ibarətdir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 22 dekabr 2017-ci il tarixli 26-N nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamənin 2-ci bəndində nəzərdə tutulmuş xidmətin fəaliyyət istiqamətlərinə ev dustaqlığı qətimkan tədbirinin icrasını və təqsirləndirilən şəxsin davranışına nəzarəti həyata keçirmək kimi səlahiyyətləri müəyyən edilməmişdir.

Bundan başqa həbsdə saxlanılan və barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxsin CPM-in 162.1.2-ci maddəsinin tələbləri baxımından həbsdən azad edilməsi zərurətindən irəli gələrək, belə hallarda qərarın icrasının təqsirləndirilən şəxsin həbsdən azad edilməsi hissəsində müvafiq istintaq təcridxanasına həvalə olunması mümkündür.

Həmçinin barələrində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxslərin üzərinə CPM-in 163.3-cü maddəsində nəzərdə tutulan və imperativ xarakter daşıyan məcburi vəzifələrin tam və ya qismən qoyulmaması , məcburi vəzifələrdən irəli gələn məhdudiyyətlərin həcmi məhkəmənin mülahizəsindən asılı olduğu, eləcə də CPM-in 163.3-1-ci maddəsinə əsasən əlavə vəzifələr qoyulduğu hallarda məhkəmə qənaətinin əsaslandırılmaması kimi hallar da müşahidə edilir.

Azərbaycan Respublikası CPM-in 163.3.1-ci maddəsinin mənasına görə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxsin yaşayış yerindən çıxmasının tamamilə qadağan olunması bu şəxsin ev dustaqlığının tətbiq edildiyi müddətdə həmin yaşayış yerini ümumiyyətlə tərk edə bilməməsi, yaşayış yerindən müəyyən vaxtlarda çıxmağın qadağan edilməsi isə şəxsin məhkəmənin qərarında konkret göstərilmiş vaxtda, yəni günün dəqiq müəyyən edilmiş saatlarında və ya həftənin dəqiq müəyyən edilmiş günlərində, yaxud bunlardan hər ikisinin tətbiqi ilə, yəni həftənin müəyyən günün müəyyən saatlarında yaşayış sahəsini tərk edə bilməməsi deməkdir.

“Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2009-cu il 03 noyabr tarixli 2 №-li Qərarının 10-cu bəndinə əsasən cinayət prosessual qanunun 163.3 və 163.3-1-ci maddələrinə görə ev dustaqlığı qətimkan tədbiri təqsirləndirilən şəxsin üzərinə müəyyən vəzifələrin qoyulması ilə müşayiət olunduğundan, bu qətimkan tədbirinin tətbiqinə dair vəsatətdə təqsirləndirilən şəxsin üzərinə hansı vəzifələrin qoyulmalı olduğu göstərilməli və bunun zəruriliyi əsaslandırılmalıdır.

Ev dustaqlığı qətimkan tədbiri seçilərkən məhkəmələr tərəfindən təqsirləndirilən şəxsin yaşı, sağlamlıq vəziyyəti, ailə vəziyyəti və başqa hallar nəzərə alınmalıdır. Ev dustaqlığı

qətimkan tədbirinin seçilməsi haqqında qərarda məhkəmə istisnasız olaraq təqsirləndirilən şəxsin CPM-in 163.3-cü maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməsi haqqında müddəalar əlavə etməklə yanaşı onun üzərinə CPM-in 163.3-1-ci maddəsində sadalanan əlavə vəzifələri də qoya bilər. Əlavə vəzifələrin müəyyən edilməsi qəbul edilmiş qərarda əsaslandırılmalıdır.

Məhkəmələr ev dustaqlığı növündə qətimkan tədbirinin seçilməsi haqqında qərarında onun konkret olaraq hansı yaşayış sahəsində (ünvanı dəqiq göstərilməklə), konkret göstərilmiş vaxtda icra olunacağını dəqiq müəyyən etməlidirlər. Həmçinin qərar qəbul edilərkən şəxsin yaşayış yerindən hansı vaxtda çıxmamasını dəqiq göstərməli və bunu əsaslandırmalıdırlar.

Azərbaycan Respublikası CPM-in 448.3.6-cı maddəsində görə məhkəmə nəzarəti funksiyalarının həyata keçirən hakimin qərarında qərarın icra edilməsi həvalə edilən vəzifəli şəxs və ya orqan göstərilməlidir. Lakin, bəzi hallarda cinayət-prosessual qanunun bu tələbinin ziddinə olaraq məhkəmə qərarlarında ev dustaqlığı qətimkan tədbirinin icra edilməsi həvalə olunmuş vəzifəli şəxs və orqan göstərilmir.

Ev dustaqlığı qətimkan tədbirinin seçilməsi, uzadılması və ya həbsin əvəz edilməsi qaydasında tətbiq edilməsi məsələlərinə baxılması üzrə məhkəmə təcrübəsində yuxarıda qeyd olunan və digər pozuntuların istisna edilməsi üçün cinayət-prosessual qanunvericiliyinin tələblərinə, “Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında” Ali Məhkəmənin Plenumunun 2009-cu il 03 noyabr tarixli Qərarının, yuxarıda qeyd olunan təlimat və qaydaların müddəalarına riayət edilməsi tövsiyə olunur.

**Cinayət kollegiyasının sədri** **Hafiz Nəsibov**